AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

QƏRAR

“Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 351-VIIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 351-VIIQD nömrəli Qanununun tətbiqi və “Patent haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 755 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 31 mart tarixli 637 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Əmtəə nişanlarının Dövlət reyestrinin aparılma Qaydasının və coğrafi göstəricilərin Dövlət reyestrinin aparılma Qaydasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 30 avqust tarixli 143 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 538 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş “Coğrafi göstəricilərin Dövlət reyestrinin aparılma Qaydası”nın 8-ci hissəsinə “Apellyasiya” sözündən əvvəl “Agentliyin əqli mülkiyyət mübahisələri üzrə” sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş “Əmtəə nişanlarının Dövlət reyestrinin aparılma Qaydası”nın 8-ci hissəsinə “Apellyasiya” sözündən əvvəl “Agentliyin əqli mülkiyyət mübahisələri üzrə” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 600 (Cild I); 2025, № 9, maddə 876) ilə təsdiq edilmiş “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissənin “f” yarımbəndi üzrə:

2.1.1. birinci abzasda “sənaye mülkiyyətinin mühafizəsi üzrə” sözləri “Sənaye mülkiyyətinin mühafizəsinə dair 1883-cü il 20 mart tarixli” sözləri ilə əvəz edilsin;

2.1.2. ikinci abzasda “Konvensiyasının iştirakçısı olan” sözləri “Konvensiyasına tərəfdar çıxan” sözləri ilə əvəz edilsin;

2.2. 21-ci hissə üzrə:

2.2.1. adında “götürülməsi” sözü “çağırılması” sözü ilə əvəz edilsin;

2.2.2. 21.1-ci və 21.2-ci bəndlərdə “götürülə” sözü “çağırıla” sözü ilə əvəz edilsin;

2.2.3. 21.3–21.5-ci bəndlərdə “götürülmüş” sözü “çağırılmış” sözü ilə əvəz edilsin;

2.3. 30.2-ci bəndin ikinci abzasının birinci cümləsində “Konvensiyasının iştirakçısı olan” sözləri “Konvensiyasına tərəfdar çıxan” sözləri ilə əvəz edilsin;

2.4. 33.1-ci bəndin birinci abzasında “Apellyasiya şurasına” sözləri “Agentliyin əqli mülkiyyət mübahisələri üzrə Apellyasiya şurasına (bundan sonra – Apellyasiya şurası)” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 119 (Cild I) ilə təsdiq edilmiş “Patent müvəkkilləri haqqında Əsasnamə”nin 2.2-ci bəndin ikinci abzasına “Agentliyinin” sözündən sonra “əqli mülkiyyət mübahisələri üzrə” sözləri əlavə edilsin.

4. “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 155 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 681 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adında və 1-ci hissədə “sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan” sözləri “əqli mülkiyyət mübahisələri üzrə” sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurası haqqında Əsasnamə” üzrə:

4.2.1. adında “sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan” sözləri “əqli mülkiyyət mübahisələri üzrə” sözləri ilə əvəz edilsin;

4.2.2. 1-ci hissə üzrə:

4.2.2.1. 1.1-ci bənddə “sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan” sözləri “əqli mülkiyyət mübahisələri üzrə” sözləri ilə əvəz edilsin və həmin bəndə “şurası” sözündən sonra “(bundan sonra – Apellyasiya şurası)” sözləri əlavə edilsin;

4.2.2.2. 1.2-ci, 1.3-cü və 1.5-ci bəndlərdə “sənaye mülkiyyətinin” sözləri “əqli mülkiyyətin” sözləri ilə əvəz edilsin;

4.2.3. 2-ci hissənin ikinci abzasında “sənaye mülkiyyəti” sözləri “əqli mülkiyyət” sözləri ilə, üçüncü abzasında “sənaye mülkiyyətinin” sözləri “əqli mülkiyyətin” sözləri ilə əvəz edilsin;

4.2.4. 5.1-ci bəndin “i” yarımbəndində “sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının iştirakçısı olan” sözləri “Sənaye mülkiyyətinin mühafizəsinə dair 1883-cü il 20 mart tarixli Paris Konvensiyasına tərəfdar çıxan” sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 692 (Cild I); 2024, № 1, maddə 73; 2025, № 9, maddə 876) ilə təsdiq edilmiş “Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. III fəslin 7-ci hissəsi üzrə:

5.1.1. adında “götürülməsi” sözü “çağırılması” sözü ilə əvəz edilsin;

5.1.2. 7.1-ci və 7.2-ci bəndlərdə “götürülə” sözü “çağırıla” sözü ilə əvəz edilsin;

5.1.3. 7.3-cü bənddə “götürülmüş” sözü “çağırılmış” sözü ilə əvəz edilsin;

5.2. IV fəslin 5.1-ci bəndində “Apellyasiya şurasına” sözləri “Agentliyin əqli mülkiyyət mübahisələri üzrə Apellyasiya şurasına (bundan sonra – Apellyasiya şurası)” sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 18 sentyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 749 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında əmtəə nişanlarının geniş tanınması Qaydaları”nın 1.4-cü bəndinə “Agentliyinin” sözündən sonra “əqli mülkiyyət mübahisələri üzrə” sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 159 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş “Patent hüququnun girov qoyulması barədə müqavilələrin qeydiyyata alınması Qaydaları”nın 1.1-ci bəndində “bəndinə” sözü “hissəsinə” sözü ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 aprel tarixli 63 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 357 (Cild I) ilə təsdiq edilmiş “İxtira və sənaye nümunəsi patentinin qüvvədə olma müddətinin uzadılması Qaydası”nın 1.1-ci bəndində “bəndinə” sözü “hissəsinə” sözü ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189, № 3, maddə 264, № 4, maddələr 360, 387, № 5 (II kitab), maddələr 466, 470, 474, № 6, maddələr 559, 567, 592, № 7 (II kitab), maddə 753; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 8 sentyabr tarixli 267 nömrəli, 9 sentyabr tarixli 287 nömrəli, 21 sentyabr tarixli 308 nömrəli, 9 oktyabr tarixli 330 nömrəli və 12 oktyabr tarixli 331 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı”nın 142270-ci və 142273-cü yarımbəndlərinə “Apellyasiya” sözündən əvvəl “Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin əqli mülkiyyət mübahisələri üzrə” sözləri əlavə edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 980 (Cild I); 2024, № 3, maddə 341) ilə təsdiq edilmiş “İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri”ndə aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1.13-cü bənddə “İddia sənədinin verildiyi tarixdən” sözləri “İddia sənədi materiallarının rəsmi bülletendə dərcinə texniki hazırlıq başa çatanadək” sözləri ilə əvəz edilsin;

10.2. aşağıdakı məzmunda 1.9-1-ci və 1.24–1.26-cı bəndlər əlavə edilsin:

1.9-1.	Patentin qüvvədə saxlanılması üçün haqqın ödənilməsi patentin qüvvədə olduğu il başa çatanadək həyata keçirilmədikdə haqqın ödənilməsi müddətinə əlavə olaraq 6 (altı) ay müddətində möhlət verilməsi üçün	80 manat
1.24.	İddiaçının vəsatəti əsasında ixtiraya dair iddia sənədi barəsində ilkinlik iddiasına düzəlişlər və əlavələr edilməsi üçün	45 manat
1.25.	İddiaçının vəsatəti əsasında faydalı modelə dair iddia sənədi barəsində ilkinlik iddiasına düzəlişlər və əlavələr edilməsi üçün	40 manat
1.26.	İddiaçının vəsatəti əsasında sənaye nümunəsinə dair iddia sənədi barəsində ilkinlik iddiasına düzəlişlər və əlavələr edilməsi üçün	35 manat

10.3. 1.20-ci bənddə “sənədi barədə” sözləri “sənədində göstərilmiş obyekt üzrə” sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 noyabr tarixli 437 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1857 (Cild I); 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş “Patentin alınması barədə iddia sənədinə aid Tələblər”də aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1-ci hissə üzrə:

11.1.1. 1.4-cü bənddə “Xarici” sözü “Qanunun 27-2-ci maddəsi nəzərə alınmaqla, xarici” sözləri ilə və “iştirak etdiyi” sözləri “tərəfdar çıxdığı” sözləri ilə əvəz edilsin;

11.1.2. 1.10-cu bəndin ikinci cümləsi çıxarılsın;

11.1.3. 1.11-ci bənd ləğv edilsin;

11.1.4. 1.12-ci bənddə “28-ci maddəsinə” sözləri 28–28-3-cü maddələrinə” sözləri ilə əvəz edilsin;

11.1.5. 1.14-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Yaradılan ixtira, faydalı model və sənaye nümunəsi barəsində işəgötürənlə işçinin münasibətlərini tənzimləyən müəllif müqaviləsinin və xidməti tapşırıq müqaviləsinin nümunəsi Agentlik tərəfindən müəyyən edilir.”;

11.1.6. 1.16-cı bənddə “sənədində göstərilmiş” sözləri “edilən” sözü ilə və “əvvəlki” sözü “əvvəl verilən” sözləri ilə əvəz edilsin;

11.1.7. 1.17-ci bəndin üçüncü cümləsində “iddia sənədinin verildiyi gündən” sözləri “iddiaçının bu barədə Agentlik tərəfindən göndərilən bildirişi aldığı tarixdən” sözləri ilə əvəz edilsin;

11.1.8. 1.20-ci bənd ləğv edilsin;

11.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

“2. İxtira barəsində iddia sənədinə dair tələblər

2.1. Qanunun 27-ci maddəsinin 3-cü hissəsinə uyğun olaraq, iddia sənədinin tərkibi aşağıdakılardan ibarətdir:

2.1.1. müəllif (müəlliflər) və adına patent verilməsi xahiş edilən hüquqi və ya fiziki şəxs (şəxslər), həmçinin onların yerləşdiyi və ya yaşadığı yer göstərilməklə patent verilməsi barədə ərizə;

2.1.2. ixtiranın mahiyyətini tam açıqlayan və həyata keçirilməsi üçün kifayət qədər aydınlıq yaradan təsvir;

2.1.3. ixtiranın təsvirinə əsaslanan və mahiyyətini ifadə edən düstur;

2.1.4. iddia obyektinin mahiyyətinin başa düşülməsi üçün zəruri olan çertyojlar və başqa materiallar;

2.1.5. referat.

2.2. İddia olunan ixtira genetik ehtiyatlara əsaslanarsa, iddiaçı genetik ehtiyatların mənşə ölkəsi haqqında məlumatı təqdim etməli, əgər bu məlumat iddiaçıya məlum deyildirsə genetik ehtiyatların mənbəyini açıqlamalıdır.

2.3. İddia sənədində iddia edilmiş ixtira genetik ehtiyatlarla əlaqəli olan ənənəvi biliklərə əsaslanarsa, iddiaçı hansının münasib olmasından asılı olaraq, genetik ehtiyatlarla əlaqəli olan ənənəvi bilikləri təqdim etmiş yerli xalqlar və ya yerli tayfa haqqında məlumatı və ya genetik ehtiyatlarla əlaqəli olan ənənəvi biliklərin mənbəyini açıqlamalıdır (təqdim edilmiş məlumatın doğruluğuna görə iddiaçı məsuliyyət daşıyır).";

11.3. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. İxtiranın vəhdətinə dair tələblər

2-1.1. Qanunun 27-ci maddəsinin 3-cü hissəsinə uyğun olaraq ixtira barəsində iddia sənədi bir ixtiraya, yaxud öz aralarında vahid ixtiraçılıq fikri ilə əlaqəli olan bir qrup ixtiraya aid edilməlidir (vəhdətlik tələbi). İxtiranın vəhdətlik tələbi o zaman yerinə yetirilmiş hesab edilir ki, həmin ixtiralar, məcmu şəklində baxılan iddia olunmuş ixtiraların hər biri tərəfindən texnika səviyyəsinə verilən töhfəni (faydanı) müəyyən edən bir və ya bir neçə eyni və ya müvafiq texniki əlamətlərlə ifadə olunan qarşılıqlı əlaqə olsun.

2-1.2. İxtiranın vəhdətlik tələbi aşağıdakı hallarda gözlənilmiş sayılır:

2-1.2.1. ixtiranın düsturunda bir ixtira xarakterizə olunduqda;

2-1.2.2. ixtiranın düsturunda bir qrup ixtira barəsində aşağıdakı əlamətlər səciyyələndikdə:

2-1.2.2.1. onlardan biri digərinin alınması (hazırlanması) üçün nəzərdə tutulmalıdır (məsələn, qurğu və ya maddənin və onların bütövlükdə, yaxud bir hissəsinin alınması (hazırlanması üsulu);

2-1.2.2.2. onlardan biri digərinin həyata keçirilməsi üçün nəzərdə tutulmalıdır (məsələn, üsul və üsulun bütövlükdə və ya hərəkətlərindən birinin həyata keçirilməsi üçün qurğu);

2-1.2.2.3. onlardan biri digərinin istifadəsi (digərində istifadə) üçün nəzərdə tutulmalıdır (məsələn, üsulda istifadə üçün nəzərdə tutulmuş üsul və maddə; üsul və ya qurğu və onun bir hissəsi; üsul və ya maddənin yeni təyinat üzrə tətbiqi və bu yeni təyinatla onlardan istifadə üsulu; qurğu və ya maddənin yeni təyinat üzrə tətbiqi və tərkibinə bu qurğu və ya maddə daxil olan qurğu və ya maddə);

2-1.2.2.4. qurğu və ya maddənin yeni təyinat üzrə tətbiqi tərkibinə həmin qurğu və ya maddə daxil olan qurğu və ya maddə üçün nəzərdə tutulmalıdır;

2-1.2.2.5. ixtira eyni texniki nəticə alınmasını təmin edən, eyni təyinatlı və eyni növdən olan obyektlərə aid olmalıdır.";

11.4. 17-ci hissə üzrə:

11.4.1. adında "modelin qeydiyyatı üçün" sözləri "model barəsində" sözləri ilə əvəz edilsin;

11.4.2. 17.3-cü bənddə "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin;

11.4.3. 17.4-cü bənddə "modelin qeydiyyatı ilə bağlı" sözləri "model barəsində" sözləri ilə əvəz edilsin;

11.5. 19.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"19.1. Qanunun 27-ci maddəsinin 3-cü hissəsinə uyğun olaraq faydalı model barəsində iddia sənədi bir faydalı modelə, yaxud öz aralarında vahid ixtiraçılıq fikri ilə əlaqəli olan bir qrup faydalı modelə aid edilməlidir (vəhdətlik tələbi). Faydalı modelin

vəhdətlik tələbi o zaman yerinə yetirilmiş hesab edilir ki, həmin faydalı modellər arasında, məcmu şəklində baxılan iddia olunmuş faydalı modellərin hər biri tərəfindən texnika səviyyəsinə verilən töhfəni (faydanı) müəyyən edən bir və ya bir neçə eyni və ya müvafiq texniki əlamətlərlə ifadə olunan qarşılıqlı əlaqə olsun.";

11.6. 30-cu hissə üzrə:

11.6.1. adında "nümunəsinin qeydiyyatı üçün" sözləri "nümunəsi barədə" sözləri ilə əvəz edilsin;

11.6.2. 30.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"30.1. Qanunun 27-ci maddəsinin 4-cü hissəsinə uyğun olaraq sənaye nümunəsi barəsində iddia sənədinə aşağıdakılar daxil edilir:

30.1.1. müəllif (müəlliflər) və adına patent verilməsi xahiş edilən hüquqi və ya fiziki şəxs (şəxslər), həmçinin onların yerləşdiyi və ya yaşadığı yer göstərilməklə patent verilməsi barədə ərizə;

30.1.2. məmulatın zahiri görkəminin estetik xüsusiyyətlərini müəyyən edən sənaye nümunəsinin mühüm əlamətləri barədə aydın təsəvvür yaradan məmulatın şəkillərinin dəsti;

30.1.3. sənaye nümunəsinin mahiyyətini açıqlamaq üçün zəruri olduqda sənaye nümunəsinin mühüm əlamətlərini əks etdirən təsviri, məmulatın ümumi görkəminin çertyojları (o cümlədən, iddiaçının istəyinə görə onun elektron formada üçölçülü modeli), erqonomik sxemi, konfeksiya xəritəsi;

30.1.4. sənaye nümunəsinin yaradılması zamanı istifadə edilmiş və ya onda təcəssüm etdirilmiş mədəniyyətin ənənəvi ifadələrinin, ənənəvi biliklərin və ya genetik ehtiyatlarla əlaqəli olan ənənəvi biliklərin mənbəyinin açıqlanması (iddiaçı təqdim edilmiş məlumatın doğruluğuna görə məsuliyyət daşıyır).";

11.6.3. 30.5-ci bənddə "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin;

11.7. 31-ci hissə üzrə:

11.7.1. adında "vahidliyi" sözü "vəhdətinə dair tələblər" sözləri ilə əvəz edilsin;

11.7.2. 31.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"31.1. Sənaye nümunəsi barəsində iddia sənədi bir sənaye nümunəsinə və ya Sənaye Nümunələrinin Beynəlxalq Təsnifatının (Lokarno təsnifatı) bir sinfinə aid olan bir qrup sənaye nümunəsinə aid olmalıdır.";

11.8. 32.2-ci bənddə "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 453 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1873 (Cild I); 2025, № 2, maddə 196) ilə təsdiq edilmiş "İxtira, faydalı model və sənaye nümunələrinin dövlət reyestrinə daxil edilməsi Qaydası"nın 1.9-cu bəndi aşağıdakı redaksiyada verilsin:

"1.9. Agentlik Qanunun 30-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq dərc olunmuş iddia sənədinə etirazın verilməsi müddəti qurtardıqdan və ya ixtira, faydalı model və ya sənaye nümunəsinə patentin verilməsinə dair qərar qəbul etdiyi tarixdən etibarən 2 (iki) ay ərzində ixtira, faydalı model və ya sənaye nümunəsinin qeydiyyatı, patentin verilməsi və dərc olunması üçün dövlət rüsumu ödənilməsi şərtilə ixtira, faydalı model və ya sənaye nümunəsini Reyestrdə qeydə alır və iddiaçıya patent verir.".

13. "İddia sənədi üzrə məlumat axtarışının və mahiyyətcə ekspertizanın aparılması Qaydası"nın və "Dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 dekabr tarixli 478 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2062 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

13.1. adında və 1-ci hissədə “İddia sənədi üzrə məlumat axtarışının və” sözləri “Mahiyyətcə ekspertiza məqsədilə məlumat axtarışının və ixtira, faydalı model və ya sənaye nümunəsi barədə iddia sənədi üzrə” sözləri ilə əvəz edilsin;

13.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “İddia sənədi üzrə məlumat axtarışının və mahiyyətcə ekspertizanın aparılması Qaydası” üzrə:

13.2.1. adında “İddia sənədi üzrə məlumat axtarışının və” sözləri “Mahiyyətcə ekspertiza məqsədilə məlumat axtarışının və ixtira, faydalı model və ya sənaye nümunəsi barədə iddia sənədi üzrə” sözləri ilə əvəz edilsin;

13.2.2. 1-ci hissə üzrə:

13.2.2.1. 1.1-ci, 1.2-ci və 1.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“1.1. Bu Qayda “Patent haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 29-cu maddəsinin 10-cu hissəsinin beşinci abzasına uyğun olaraq hazırlanmışdır və ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia sənədinin mahiyyətcə ekspertizası məqsədilə məlumat axtarışının (bundan sonra – məlumat axtarışı), habelə həmin ekspertizanın aparılması prosedurlarını müəyyən edir.

1.2. Məlumat axtarışı Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə (bundan sonra – Agentlik) ixtira və faydalı model barədə iddia sənədinin daxil olduğu tarixdən 12 (on iki) ay, sənaye nümunəsi barədə iddia sənədinin daxil olduğu tarixdən isə 3 (üç) ay ərzində iddiaçının və ya digər maraqlı şəxsin vəsatəti əsasında obyektin patent qabiliyyətini müəyyənləşdirmək üçün aparılır.”;

“1.4. Qanunun 3.3-cü, 3.4-cü maddələrində, 7-ci maddəsinin 8-ci hissəsində, 8-ci maddəsinin 6-cı hissəsində, 9-cu maddəsinin 5-1-ci, 6-cı və 7-ci hissələrində göstərilən obyektlərə patentlə hüquqi mühafizə verilmir və məlumat axtarışı aparılmır.”;

13.2.2.2. 1.3-cü bənddə “Patentin alınması üçün iddia sənədi üzrə” sözləri “Məlumat” sözü ilə əvəz edilsin;

13.2.2.3. aşağıdakı məzmunda 1.3-1-ci bənd əlavə edilsin:

“1.3-1. İlkin ekspertizanın keçirilməsi, habelə ilkin ekspertizanın müsbət nəticəsi üzrə ixtira, faydalı model və ya sənaye nümunəsi barədə iddia sənədlərinə dair məlumatların dərc edilməsi ilə bağlı məsələlər Qanunun 29-cu və 30-cu maddələri ilə tənzimlənir.”;

13.2.3. 2-ci hissə üzrə:

13.2.3.1. 2.1-ci bəndin üçüncü cümləsi çıxarılsın;

13.2.3.2. 2.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

“2.6. İddia sənədinin, o cümlədən Beynəlxalq və Avrasiya iddia sənədlərinin tərkibi, tərtib edilməsi, təqdim edilməsi, verilmə tarixinin müəyyən edilməsi, onda düzəlişlərin və əlavələrin edilməsi, yazışmaların aparılması, iddiaçıya bildirişlərin və sorğuların göndərilməsi, habelə iddia sənədi üzrə bilavasitə təmsiletmə Qanunun 26−27-2-ci maddələrinin tələblərinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 noyabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmiş “Patentin alınması barədə iddia sənədinə aid Tələblər”ə (bundan sonra – Tələblər) uyğun olaraq həyata keçirilir.”;

13.2.4. 3-cü hissə üzrə:

13.2.4.1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.1. İxtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədi Qanunun 29-cu maddəsinin 1-ci hissəsində nəzərdə tutulan tələblərə cavab verdiyi halda Qanunun 29-cu maddəsinin 3-cü hissəsinə uyğun olaraq aşağıda göstərilənlərin müəyyən edilməsi məqsədilə iddia edilən ixtiranın, faydalı modelin və sənaye nümunəsinin ekspertizası həyata keçirilir:

3.1.1. ixtira obyektinin yeniliyi;

3.1.2. ixtira obyektinin istənilən sahədə məhsula və ya üsula aid olan texniki həllərinin mövcudluğu;

3.1.3. ixtiranın həmin sahədə çalışan mütəxəssis üçün mövcud bilgilərdən irəli gəlib-gəlməməsi;

3.1.4. ixtira obyektinin sənayedə tətbiq edilə bilməsi;

3.1.5. ixtiranın Qanunun 7-ci maddəsinin 8-ci hissəsində göstərilən obyektlərə aid olub-olmaması;

3.1.6. faydalı modelin yeniliyi;

3.1.7. faydalı modelin qurğu obyekti olub-olmaması;

3.1.8. faydalı modelin sənayedə tətbiq edilə bilməsi;

3.1.9. faydalı modelin Qanunun 8-ci maddəsinin 6-cı hissəsində göstərilən obyektlərə aid olub-olmaması;

3.1.10. sənaye nümunəsi kimi təqdim edilən məmulatın xarici görünüşünü müəyyən edən bədii-konstruktiv həllərin mövcudluğu;

3.1.11. sənaye nümunəsinin yeni və orijinal olub-olmaması;

3.1.12. sənaye nümunəsinin Qanunun 9-cu maddəsinin 6-cı hissəsində göstərilən obyektlərə aid olub-olmaması;

3.1.13. ixtira, faydalı model və sənaye nümunəsinin istifadəsinin Qanunun 3.3-cü və 3.4-cü maddələrində qeyd olunan hallar üçün nəzərdə tutulub-tutulmaması.";

13.2.4.2. 3.2-ci bənd ləğv edilsin;

13.2.5. 4.4-cü bənddə "götürüldükdə" sözü "çağırıldıqda" sözü ilə və "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin;

13.2.6. 5-ci hissə üzrə:

13.2.6.1. 5.6-cı bənd ləğv edilsin;

13.2.6.2. 5.7-ci bənddə "sənədi üzrə" sözləri "sənədində göstərilmiş obyekt üzrə" sözləri ilə əvəz edilsin;

13.2.6.3. 5.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.12. Məlumat axtarışı aparılarkən, iddia olunan ixtiranın və faydalı modelin yeniliyinin yoxlanılması məqsədilə axtarışın həcminə daha əvvəl ilkinlik tarixi ilə Agentliyə daxil olan və geri çağırılmayan ixtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədləri, habelə barəsində məlumat axtarışı aparılan iddia sənədinin ilkinlik tarixinə dair məlumatların dərc edilib-edilməməsindən asılı olmayaraq, Azərbaycan Respublikasında patentlə mühafizə edilən ixtira, faydalı model və sənaye nümunəsi də aid edilir.";

13.2.7. 7-ci hissə üzrə:

13.2.7.1. adında "texnika səviyyəsinə" sözləri "mövcud bilgilər məcmusuna" sözləri ilə əvəz edilsin;

13.2.7.2. 7.1-ci bəndin birinci cümləsində "Texnika səviyyəsinə ixtiranın" sözləri "Mövcud bilgilər məcmusuna ixtiranın və faydalı modelin" sözləri ilə və üçüncü cümləsində "Faydalı model və sənaye nümunəsinin yeniliyi" sözləri "Sənaye nümunəsinin yeniliyinin müəyyən edilməsi" sözləri ilə əvəz edilsin;

13.2.8. 9-cu hissə üzrə:

13.2.8.1. 9.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.1. Qanunun 29-cu maddəsinin 10-cu hissəsinin ikinci abzasına əsasən iddiaçı və ya digər maraqlı şəxs ixtira və faydalı model barədə iddia sənədinin Agentliyə və ya Ekspertiza Mərkəzinə daxil olduğu tarixdən 18 (on səkkiz) ay, sənaye nümunəsi barədə iddia sənədinin daxil olduğu tarixdən isə 12 (on iki) ay ərzində, müəyyən edilmiş haqqın ödənilməsi şərtilə iddia sənədinin mahiyyətcə ekspertizasının aparılması üçün vəsatətlə müraciət edə bilər. İddia sənədinin mahiyyətcə ekspertizası iddia sənədi üzrə ilkin ekspertiza

başa çatdıqdan və mahiyyətcə ekspertizanın aparılması barədə iddiaçı və ya digər maraqlı şəxs tərəfindən vəsatət daxil olduqdan sonra 2 (iki) ay ərzində aparılır. Bu müddətə Qanunun 29-cu maddəsinin 2-ci hissəsində nəzərdə tutulan düzəliş aparılmış sənədlərin təqdim edildiyi müddət, habelə iddiaçının vəsatəti əsasında onun uzadılma müddəti daxil deyildir.";

13.2.8.2. aşağıdakı məzmunda 9.1-1-ci bənd əlavə edilsin:

"9.1-1. Mahiyyətcə ekspertizanın aparılması haqqında vəsatət digər maraqlı şəxslər tərəfindən daxil olduğu halda, Agentlik bu barədə iddiaçını 5 (beş) iş günü müddətində məlumatlandırır.";

13.2.8.3. 9.2-ci bənd ləğv edilsin;

13.2.8.4. 9.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"9.3. Qanunun 29-cu maddəsinin 3-cü hissəsində göstərilən tələblər gözlənilməklə ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia tələblərə cavab verdiyi halda Agentlik patent verilməsi haqqında qərar qəbul edir və onun nəticəsi barədə iddiaçını elektron poçt, yaxud sifarişli poçt vasitəsilə məlumatlandırır.";

13.2.8.5. 9.4-cü bənddə "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin;

13.2.8.6. 9.7-ci bənddə "götürülməsi" sözü "çağırılması" sözü ilə əvəz edilsin;

13.2.9. 11-ci hissəyə aşağıdakı məzmunda 11.5-ci bənd əlavə edilsin:

"11.5. İxtira, faydalı model və sənaye nümunəsinə ilkinlik hüququ, ilkinliyin, o cümlədən konvensiya və sərgi ilkinliyinin müəyyənləşdirilməsi, iddia sənədi barəsində ilkinlik iddiasında düzəlişlər və əlavələr edilməsi, ilkinlik hüququnun bərpası, habelə ayrılmış iddia sənədi üzrə ixtira və faydalı modelin ilkinliyinin təyin olunması ilə bağlı bu Qaydada nəzərdə tutulmayan məsələlər Qanunun 28-ci, 28-1-ci, 28-2-ci və 29-cu maddələrinin 5-ci hissəsi ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tənzimlənir.";

13.2.10. 12-ci hissə ləğv edilsin;

13.2.11. 13-cü hissə üzrə:

13.2.11.1. 13.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"13.1.1. barəsində belə ilkinlik istənilən iddia sənədi ixtira və ya faydalı model üçün daha əvvəlki iddia sənədinin daxil olduğu tarixdən 12 (on iki) ay, sənaye nümunəsi üçün isə 6 (altı) ay müddətində Agentliyə daxil olmalıdır;";

13.2.11.2. 13.2-ci bənddə "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin;

13.2.12. 14-cü hissə üzrə:

13.2.12.1. 14.1.1-ci və 14.1.2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"14.1.1. ayrılmış iddia sənədi Agentliyə ixtira üçün əvvəlki iddia sənədinin verildiyi tarixdən 12 (on iki) ay keçənədək, faydalı model üçün isə əvvəlki iddia sənədinin verildiyi tarixdən 6 (altı) ay keçənədək təqdim edilməlidir;

14.1.2. ayrılmış iddia sənədi üzrə ixtira və ya faydalı model üçün iddia obyekti əvvəl verilmiş iddia sənədinin məzmunundan kənara çıxmamalı və onun tərkib hissəsi kimi iddiaçı tərəfindən dəqiq səciyyələndirilməlidir.";

13.2.12.2. 14.3-cü bənd ləğv edilsin;

13.2.13. 15-ci hissə üzrə:

13.2.13.1. 15.1-ci bənddə "iddia sənədi üzrə məlumat axtarışı və" sözləri "sənədində göstərilmiş obyekt üzrə məlumat axtarışı və iddia sənədi üzrə" sözləri ilə əvəz edilsin və həmin bəndə "Qanunun" sözündən sonra "3.3-cü, 3.4-cü," sözləri əlavə edilsin;

13.2.13.2. 15.7-ci bənddə "götürülməmişdirsə" sözü "çağırılmamışdırsa" sözü ilə və "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin;

13.2.14. 17-ci hissə üzrə:

13.2.14.1. 17.1-ci bənddə "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin;

13.2.14.2. 17.3.3-cü yarımbənddə “götürülməmişdir” sözü “çağırılmamışdır” sözü ilə əvəz edilsin;

13.2.15. 18.1-ci bənddə “bəndinə” sözü “hissəsinə” sözü ilə əvəz edilsin;

13.2.16. 19.3-cü bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Bu halda patent verilməsi haqqında qərar hazırlanır və patent haqqında məlumatlar Qanunun 33-cü maddəsinə uyğun olaraq Agentliyin rəsmi bülletenində dərc olunur.”;

13.2.17. 20.6-cı bənddə “götürülmüş” sözü “çağırılmış” sözü ilə əvəz edilsin;

13.2.18. 21.4-cü bənddə “götürülməsi” sözü “çağırılması” sözü ilə əvəz edilsin;

13.2.19. 22-ci hissə üzrə:

13.2.19.1. 22.1-ci bənd ləğv edilsin;

13.2.19.2. 22.2-ci və 22.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“22.2. Qanunun 29-cu maddəsinin 3-cü və 10-cu hissələrində göstərilən tələblər gözlənilməklə ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia sənədinin mahiyyətcə ekspertizası müsbət nəticə ilə başa çatdıqdan sonra 10 (on) iş günü müddətində Agentlik patent verilməsi haqqında qərar qəbul edir.

22.3. Qanunun 30-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq dərc olunmuş iddia sənədinə etirazın verilməsi müddəti qurtardıqdan və ya ixtira, faydalı model və ya sənaye nümunəsinə patentin verilməsinə dair qərar qəbul etdiyi tarixdən etibarən 2 (iki) ay ərzində ixtira, faydalı model və ya sənaye nümunəsinin qeydiyyatı, patentin verilməsi və dərc olunması üçün dövlət rüsumu ödənilməsi şərtilə ixtira, faydalı model və ya sənaye nümunəsini müvafiq Dövlət reyestrində qeydə alır və iddiaçıya patent verir.”;

13.3. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq Qaydası” üzrə:

13.3.1. 3-cü hissə ləğv edilsin;

13.3.2. 4-cü hissənin birinci və ikinci cümlələri aşağıdakı redaksiyada verilsin:

“Agentlik ilkin ekspertizanın nəticəsi üzrə müsbət qərar qəbul etdikdə ixtira və faydalı model barəsində iddia sənədinin verildiyi tarixdən, ilkinlik istənildiyi halda isə ilkinlik tarixindən 18 (on səkkiz) ay keçən kimi sənaye nümunəsi barəsində iddia sənədinin verildiyi tarixdən isə 6 (altı) ay keçən kimi iddia sənədlərinə dair məlumatların özünün rəsmi bülletenində dərc olunmasını təmin edir. İddiaçının vəsatəti üzrə müəyyən edilmiş haqq ödənilməsi şərtilə iddia sənədinə dair məlumatlar yuxarıda göstərilən tarixdən tez də dərc oluna bilər.”.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 29 ” “ oktyabr ” 2026-cı il

№ 364